# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında “Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2014-cü il 15 sentyabr tarixli 85 nömrəli Qərarının ləğv edilməsi və “Bir sıra publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” 2022-ci il 22 fevral tarixli 41 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu” publik hüquqi şəxsin ləğv edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 21 fevral tarixli 435-06/S nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikasında “Qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 15 sentyabr tarixli 85 nömrəli Qərarı ləğv edilsin.

2. “Bir sıra publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 fevral tarixli 41 nömrəli Qərarının 5-ci hissəsi ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 17 ” aprel 2024-cü il

№ 37